*AMEA Müqayisəli ədəbiyyatşünaslıq, 2023, № 1* *ISSN 2663-4414*
*Səhifə: 105-109* *E-ISSN 2709-0762*
*https://doi.org/10.59849/2663-4414.2023.1.105*

# CƏMŞİD ƏMİROVUN "BRİLYANT MƏSƏLƏSİ" VƏ KEMEL TOKAYEVİN "DAMĞALI QIZIL" POVESTLƏRİNDƏ POLİS DETEKTİVİNİN ƏLAMƏTLƏRİ

**Seyidnisə Lətifli**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: seyidnise.letifli@mail.ru

**Xülasə.** Bəşəriyyət müxtəlif sivilizasiyalardan keçsə də, texnologiya sürətlə inkişaf etsə də, cinayət faktoru daim dünyanın ən qaranlıq guşələrində mövcud olmuşdur. Pul, qısqanclıq, hakimiyyət üzərində gedən çaxnaşmalar, qəzəblərinə məğlub olan insanlar bəşəriyyətin bütün dövrlərində cinayətlərə yol açan vacib faktorlardandır. Cinayət, cinayətkarın cəzalandırılması, ədalətin bərpa olunması, bir sözlə, bu motivin kökləri qədim zamana qədər uzanır və müxtəlif xalqların dini görüşlərində, mifologiyasında da öz əksini tapmışdır. Bütün bu ünsürlər ədəbiyyatda detektiv növün yaranmasına şərait yaratmışdır. Fərqli zaman kəsiklərində müxtəlif ölkələrin ədəbiyyatında detektiv nəsr formalaşmışdır. Azərbaycan ədəbiyyatının tanınan nümayəndəsi Cəmşid Əmirov "Sahil əməliyyatı" povestini 1958-ci ildə çap etdirməklə ədəbiyyatımızda detektiv nəsrə cığır açmış, Qazax ədəbiyyatında isə detektiv nəsrin əsası görkəmli ədib Kemel Tokayevin XX ərin 50-ci illərində qələmə aldığı "Daşqın" povesti ilə qoyulmuşdur.
Tədqiqat işində Azərbaycan ədəbiyyatında detektiv nəsrin yaradıcısı olan Cəmşid Əmirovun "Brilyant məsələsi" və Qazax ədəbiyyatının görkəmli nümayəndəsi, detektiv nəsrin əsasını qoyan Kemel Tokayevin "Damğalı qızıl" povestlərində polis detektivinin xüsusiyyətləri araşdırılmışdır. Hər iki bədii əsərin mövzu və ideya problemi, polis detektivinin səciyyəvi xüsusiyyətləri və prinsipləri, müəlliflərin yaradıcılıqlarında oxşar və fərqli cəhətlər və s. kimi məsələlər tədqiq olunmuşdur. Cəmşid Əmirovun "Brilyant məsələsi" və Kemel Tokayevin "Damğalı qızıl" povestlərinin detektiv cəhətdən təhlil obyektinə çevrilməsi, müqayisəli təhlil metodu vasitəsilə iki əsərin təhlil olunması tədqiqatın yeniliyi hesab edilə bilər.
**Açar sözlər:** Detektiv, polis, povest, xüsusiyyət, müqayisə

**Məqalə tarixçəsi:** göndərilib – 02.03.2023; qəbul edilib – 10.03.2023

# SİGNS OF A POLİCE DETECTİVE İN JAMSHİD AMİROV'S NOVEL "DİAMOND ISSUE" AND KEMEL TOKAYEV'S SHORT STORY "MARKED GOLD"

**Seyidnise Letifli**
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: seyidnise.letifli@mail.ru

**Abstract.** Although humanity has passed through different civilizations and technology has developed rapidly, the criminal factor has always existed in the darkest corners of the world. Money, jealousy, panic over power, people who are defeated by their anger are important factors that lead to crime found in all eras of mankind. Crime, punishment of the criminal, restoration of justice, in short, the roots of this motive extend to ancient times and are reflected in the religious beliefs and

mythology of various peoples. All these elements created conditions for the emergence of the detective genre in literature. Detective prose was formed in the literature of different countries at different times. Jamshid Amirov, a prominent representative of Azerbaijani literature, opened a path to detective prose in our literature by publishing the story “Coastal Operation” in 1958, and the foundation of detective prose in Kazakh literature was laid by the outstanding writer Kemel Tokayev, who wrote the story “Dashgin” in the 1950s.
In the research work, the characteristics of the police detective were investigated in the stories “Diamond Issue” of Jamshid Amirov, the creator of detective prose in Azerbaijani literature, and “Marked Gold” of Kemel Tokayev, a prominent representative of Kazakh literature, who laid the foundation of detective prose. The theme and idea problem of both fiction works, the characteristic features and principles of the police detective, the similar and different aspects in the works of the authors, etc. such issues have been studied. Turning Jamshid Amirov's “Diamond Issue” and Kemel Tokayev's “Marked Gold” into the object of detective prose analysis, studying the two works through the method of comparative analysis can be considered a novelty of the research.
**Keywords:** Detective, police, narrative, feature, comparison

**Article history:** received − 02.03.2023; accepted − 10.03.2023

### Giriş / *Introduction*

Detektiv əsər cəmiyyətdəki sosial və mədəni dəyişikliklərin qeydə alındığı dinamik sistemdir. Bu mövzuda yazılmış əsərlər nizamsız dünyada əxlaq kodeksini qoruyurlar. Detektiv nəsrin dünya ədəbiyyatında sürətlə formalaşmasında tərcümə əsərlərinin, ədəbiyyatşünasların hazırlamış olduğu ümumi konsepsiya modellərinin tətbiq olunmasının böyük əhəmiyyəti olmuşdur. Eyni zaman kəsiyində müxtəlif yazıçıların əsərlərini tədqiq etdikdə, həqiqətən də, ümumi prinsiplərin onların yaradıcılığında əks olunduğunu müşahidə edirik.

### Əsas hissə / *Main Part*

XX əsrin 50-ci illərində Kemel Tokayev və Cəmşid Əmirov mənsub olduqları ölkədə detektiv nəsrin əsasını qoymuş və hər iki sənətkar yaratmış olduğu bədii nümunələrlə ədəbiyyatda dərin iz buraxmışdır. Cəmşid Əmirovun 1962-ci ildə qələmə aldığı “Brilyant məsələsi” və qazax detektiv nəsrinin nümayəndəsi Kemel Tokayevin 1977-ci ildə yazmış olduğu “Damğalı qızıl” povestləri polis detektivinin maraqlı nümunələridir. Kemel Tokayev və Cəmşid Əmirovun yaradıcılığı canlılığı, personajlarının səmimiliyi, dilinin müqayisəliliyi ilə seçilir. Onlar personajlarını şişirtmir, tərənnüm etmir, amma sadə zəhmətkeş insanlara, öz peşəsini dostluq və yoldaşlığa görə sevən insanlara, dövlət işinə, ictimai mənafeyə sadiq olan insanlara qarşılıqlı münasibətləri, psixologiyası ilə həqiqəti göstərə bilirlər. Hər iki müəllif roman, povest və hekayələrində qəddar cinayətkarların əsl obrazını, portretini, danışıq tərzini, dialoq quruculuğunu hərtərəfli təqdim etmişdir.

Ədiblər hər iki əsərdə obrazların davranışı və danışıq tərzi ilə həyat həqiqətini, onların xarakterlərini məharətlə göstərir, onları düşündürən məsələləri cəsarətlə ortaya qoyur, onlar problemə baxış və konsepsiyalarını obrazlar vasitəsilə cəmiyyətə çatdırmışlar. Povestlərdə müəlliflər obrazlar arasında konfliktli situasiyalar yaradaraq personajların şəxsiyyətinin, hisslərinin, düşüncələrinin daha aydın üzə çıxmasına şərait yaratmışlar. Xeyirlə şərin qarşıdurması hər iki yazıçının əsərlərində tez-tez meydana çıxır və yazıçı bu iki dünyanın barışmaz mübarizəsini müxtəlif rakursdan təsvir etmişdir. Müəlliflərin əsərlərinin ən mühüm dəyəri həyatın aktual problemlərini əsas hekayə xətti ilə əlaqələndirməsi, bununla da insanı tanıması, onun cəmiyyətlə münasibətini məharətlə təsvir etməsidir. Müharibə illərində çekistlərin qəhrəmanlığı və Daxili İşlər orqanları əməkdaşlarının təhlükəli və maraqlı taleləri, cinayət işlərinin açılmasında polislərin çevikliyi və hərəkətliliyi yazıçıların qaldırdığı

əsas mövzulardır. Hər iki ədibin keçmiş olduğu həyat yoluna nəzər saldıqda onların həm ədəbi, həm də bədii fəaliyyətində oxşarlıqlar görmək mümkündür. XX əsrin 50-ci illərində yazılmış "Damğalı qızıl" və "Brilyant məsələsi" povestləri ədəbiyyatda detektiv nəsrin ədəbi nümunəsi kimi mühüm mövqeyə sahibdir. Hər iki əsər polis detektivi mövzusunda qələmə alınmış, dövrün mühüm hadisələrini təsvir etmişdir.

"1950-ci illərdə hüquq-mühafizə sisteminin intensiv inkişafı, şəhər əhalisinin artması, həyatın mürəkkəbləşməsi, cinayət, oğurluq və s. kimi halların çoxalması nəticəsində polis detektivi yaranmışdır" (Агеева, 2010). Polis təşkilatları ictimai asayişi qoruyan orqan kimi əsərlərdə təsvir olunmuşdur. "Damğalı qızıl" və "Brilyant məsələsi" povestlərində müəlliflər asayişin keşiyində duran polis işçilərinin həyatını, onların cinayətkarlarla mübarizəsi, qorxmazlığı, peşələrinə olan ciddiyyəti və məsuliyyətini bədii boyalarla təsvir etmişlər. Məlumdur ki, polis detektivi mövzusunda yazılmış əsərlərdə detektiv rolunda polis əməkdaşları iştirak edirlər. ""Damğalı qızıl" əsərində mayor Kirsanov, baş leytenant Şaydos Kanısbayeviç, polkovnik Bessonov" (Tokayev, 2022), ""Brilyant məsələsi" povestində isə polkovnik İsayev, kapitan Əli Rəsulov, ekspert Sərdar Əzimov və Səmayə Hacıyeva, müstəntiq Adilə Paşayeva və başqaları izlərin aşkara çıxarılmasında, istintaq prosesinin mütəşəkkil formada həyata keçirilməsində, cinayətkarların həbs olunmasında böyük səriştə göstərirlər" (Əmirov, 1963).

"Klassik detektiv məntiq və təxəyyüldən istifadə edirsə, polis detektivi şahidlərdən, şübhəlilərdən, istintaq prosesindən istifadə edir" (Emsley, 2006). Detektiv əsərlərdə süjetin əsasısını istintaq təşkil edir. Hər iki ədib əsərlərində istintaqı prosessual və kriminalistik baxımdan uğurla şərh etmişlər. Detektivin məqsədi baş verən hadisələri ardıcıllıqla izləmək və günahkarı təyin etməkdir. Polis detektivində sirrin açılması peşəkar polis əməkdaşlarının birgə fəliyyəti nəticəsində baş verir. Polis əməkdaşları bütün materialları toplayaraq ümumi qərara gəlib istintaq prosesini birlikdə aparırlar. "Bu mövzuda yazılmış əsərlərdə polis işçilərinin gündəlik işinin təsviri, cinayətkarın araşdırılması, istintaq prosesinin metodologiyası geniş təsvir olunur" (Emsley C. &.-M., 2017). "Polis detektivlərinin məqsədi cinayətkarı yaxalayaraq ədaləti bərpa etmək və dövləti təxribatlardan qorumaqdır" (Skogan, 2015). Onlar cinayətkarın və şübhəlilərin müəyyən edilməsində, məhkəmə qarşısında sübutların əldə edilməsində, cinayətkarın cəzalanmasında mühüm rol oynayırlar. Hər iki povestdə polis əməkdaşlarının kollektiv işi nəticəsində cinayətkarlar uğurla cinayətə cəlb olunmuşlar. "Damğalı qızıl" əsərində qızıl möhtəkirliyi və qaçaqmalçılığı ilə məşğul olan Qazarx Qureyev və onun əlaltıları, "Brilyant məsələsi" povestində isə cinayətkar Tapança Yədulla və köməkçiləri polis əməkdaşları tərəfindən cinayətə cəlb olunurlar. Hər iki əsərdə cinayətkar komandanın üzvləri bir-bir yaxalandıqdan sonra başçıları da həbs edilirlər.

Povestlərin hər ikisində qızıl möhtəkirliyi və qaçaqmalçılığı, qarət və cinayət məsələləri, qanunların pozulmasına şərait yaradan amillər tənqid olunmuşdur. Hər iki müəllifin əsərində qanun cinayətkar dəstənin başçılarını gənclər arasında zərərli təbliğat aparmaqda günahlandırmış və cinayət məsuliyyətinə cəlb etmişdir. Müəlliflər bu obrazlara qarşı vətənpərvər, əqidəli və iradəli, sadə vətəndaş obrazları yaratmışlar ki, onlar istintaq prosesinin həllində polis əməkdaşlarına yaxından kömək edirlər. Hər iki povestdə təqdim olunan köməkçi obrazlar hadisənin mahiyyətinin müəyyənləşməsində, əsas obrazların daxili keyfiyyətlərinin ortaya çıxmasında mühüm əhəmiyyət kəsb edirlər. Məsələn, "Damğalı qızıl" povestində Lyaşkerov, "Brilyant məsələsi" povestində isə vətənpərvər ukraynalı qız Lyudmila Yesenko, bağ gözətçisi Mirzə Məlik, çəkməsilən Əbdül və başqalarını göstərmək mümkündür.

Süjet əsərin bütövlükdə hərəkəti, təsvir olunan hərəkətlərin əsl zənciridir. "Brilyant məsələsi" və "Damğalı qızıl" povestləri konsentrik süjet tipinə aiddir. "Konsentrik süjet tipi bütün hadisələrin bir münaqişə ətrafında cərəyan etdiyi, hər şeyin səbəb-nəticə əlaqələrinə tabe olduğu süjet növüdür" (Кириленко, 2010).

Povestlərin bütün hissələri aydın şəkildə ifadə olunmuş konfliktlərə əsaslanır. Hər bir hadisə növbətinin səbəbi və əvvəlkinin nəticəsidir. "Süjetdəki bütün hadisələr əsas konfliktin məntiqinə tabe olaraq bir düyünə yığılır" (ТИМАШЕВА, 2017).

"Ədəbiyyatda bədii şəkildə ifadə olunan zaman və məkan münasibətlərinin daxili bağlılığı xronotop adlanır" (Бахтин, 1975). Detektiv mövzuda yazılmış əsərlərin özünəməxsus xronotopu

vardır. Cinayət keçmişdə işlənir, indiki zamanda bu izlər araşdırılır, keçmişlə əlaqələndirilir. “Damğalı qızıl” əsərində baş leytenant Şaydos, “Brilyant məsələsi” povestində isə hadisələr kapitan Rəsulovun cinayəti təsvir etməsi ilə başlandıqdan sonra istintaq prosesi detallı şəkildə təsvir olunur.

Bədii əsərlərdə ləqəblərdən süjet xəttinə emosional çalar qatmaq, qəhrəmanları obrazlı və aydın təsvir etmək üçün istifadə edilir. “Brilyant məsələsi” və “Damğalı qızıl” povestlərində müxtəlif ləqəblərdən istifadə edilmişdir: Qriqori Matveyevi-Qır-Qurbay, Tapança-Yədulla, Qızılbarmaq-Rantik və s.

“Polis detektivi mövzusunda qələmə alınmış əsərlərdə cinayətkarlara məxsus xüsusiyyətlərdən biri də şəxsiyyəti və kimliyini gizlətmək üçün əl atdığı vasitələrdir” (Winks, 2013). Məhz bunun vasitəsilə cəsus özünə aid olmayan sənədləri özününküləşdirərək şəxsiyyətini asanlıqla dəyişib izini itirir. “Brilyant məsələsi” povestində cinayətkar Yədulla obrazının qoca kişi cildinə girməsi, Klaranın özünü ayaqqabı hotelində işləyən Gülarə olaraq təqdim edib, Safurə xalanın evinə kirayəçi qismində daxil olması, “Damğalı qızıl” əsərində isə Japarovun geyimini dəyişdirərək polislərdən gizlənməsi və s. kimi nümunələri göstərmək olar.

Cinayətkarların istifadə etdiyi avtomobillər detektiv nəsrin ayrılmaz hissəsidir. Povestlərdə təsvir olunan avtomobillər tez-tez müşahidə və ünsiyyət vasitəsi kimi istifadə olunur. “Damğalı qızıl” əsərində cinayətkarların qızıl ticarəti etməsi üçün apardığı danışıqlar “Pobeda” markalı maşında baş verirsə, “Brilyant məsələsi” əsərində isə “Qara Volqa” markalı maşından istifadə edilir. Həmin maşınlar da dövrünə görə müəyyən simvollar ifadə edirlər.

Kemel Tokayevin yaratmış olduğu cinayətkar obrazlar statik xarakterdədir, Cəmşid Əmirovun qələmə aldığı cinayətkar dəstə isə daha dinamik fona malikdir. Çünki “Brilyant məsələsi” povestində təsvir olunan cinayətkarlar birxətt üzrə deyil, müxtəlif istiqamətdə cinayətlər törədirlər və bütün bu proseslər “Damğalı qızıl” əsərindən fərqli olaraq, daha geniş planda təsvir olunur. “Damğalı qızıl” povestində isə cinayətkarın keçmişdə törətmiş olduğu cinayətlər sadəcə şərh olunur.

“Damğalı qızıl” və “Brilyant məsələsi” povestlərinin final səhnəsi detektiv nəsrin tələblərinə uyğun olaraq xeyirin şər üzərində qələbəsi ilə, cinayətkarların polis əməkdaşları tərəfindən cinayətə cəlb olunması ilə bitir. Hər iki povest polis əməkdaşlarının fəaliyyətlərinin qiymətləndirilməsi və müzakirəsi ilə yekunlaşır.

“Detektiv əsərlərin müəlliflərinin məqsədi, cinayətlərin sosial mənşəyini açıqlamaq, müəyyən əxlaqi məsələləri nəzərdən keçirmək və bu səbəbdən böyük ictimai və siyasi əhəmiyyətə, aktuallığa malik olan hadisələri geniş planda təsvir etməkdir” (Шакиев, 2022).

## Nəticə/ *Conclusion*

Hər iki ədibin özünəməxsus dünyagörüşü, üslubu vardır, povestlər arasında müəyyən oxşar və fərqli cəhətlər olmasına baxmayaraq, onları birləşdirən cəhətlər əsərlərinin vahid ideoloji mövzuya, yəni cinayət və onunla mübarizə üsulunun həlli yollarının araşdırılmasına həsr olunmasıdır. Cəmşid Əmirovun “Brilyant məsələsi” və Kemel Tokayevin “Damğalı qızıl” povestləri polis detektivinin diqqətəlayiq nümunələrindəndir.

## Ədəbiyyat / *References*

Агеева, М. (2010). Концепция реальности в детективе «Полицейской процедуры» Эда Макбейн 2010. *Вестник ВятГУ*, 210-220.

Əmirov C. (1963). Brilyant məsələsi.

Кириленко, Н. Н., & Федунина, О. В. (2010). Классический детектив и полицейский роман: к проблеме разграничения жанров. *Новый филологический вестник*, *14*(3), 17-32.

Emsley, C., & Shpayer-Makov, H. (Eds.). (2006). *Police detectives in history, 1750-1950*. Ashgate Publishing, Ltd..

ТИМАШЕВА, О. В. (2017). Сюжет и композиция как приемы выразительности. In *ФУНДАМЕНТАЛЬНОЕ И АКТУАЛЬНОЕ В РАЗВИТИИ ЯЗЫКА: КАТЕГОРИИ, ФАКТОРЫ, МЕХАНИЗМЫ* (pp. 327-331).
Бахтин, М. М. (1975). Формы времени и хронотопа в романе. 239 p
Skogan, W. G., Van Craen, M., & Hennessy, C. (2015). Training police for procedural justice. *Journal of experimental criminology*, *11*, 319-334.
Шакиев, М. Н. (2022). НАСЛЕДИЕ КЕМЕЛЯ ТОКАЕВА И ВОСПОМИНАНИЯ СОВРЕМЕННИКОВ. *Известия Коми научного центра УРО РАН*, (1 (53)), 116-119.
Winks, R. W. (2013). *The detective as historian: History and art in historical crime fiction*. University of Wisconsin Pres. 251 p.
Tokayev K. (2022). Gecə açılan atəş (povestlər).

# ПРИЗНАКИ ПОЛИЦЕЙСКОГО СЫЩИКА В РОМАНЕ ДЖАМШИДА АМИРОВА "БРИЛЛИАНТОВОЕ ДЕЛО" И РАССКАЗЕ КЕМЕЛЯ ТОКАЕВА "ЗАСТОЙНОЕ ЗОЛОТО"

**Сейидниса Латифли**
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: seyidnise.letifli@mail.ru

**Резюме.** Хотя человечество прошло через разные цивилизации и технологии быстро развивались, криминальный фактор всегда существовал в самых темных уголках мира. Деньги, зависть, паника по поводу власти, люди, побежденные своим гневом, – важные факторы, приводящие к преступности, встречающейся во все эпохи человечества. Преступление, наказание преступника, восстановление справедливости, словом, корни этого мотива уходят в глубокую древность и находят свое отражение в религиозных верованиях и мифологии различных народов. Все эти элементы создали условия для возникновения детективного жанра в литературе. Детективная проза формировалась в литературе разных стран в разное время. Путь к детективной прозе в нашей литературе открыл видный представитель азербайджанской литературы Джамшид Амиров, опубликовав в 1958 году повесть «Береговая операция», а основы детективной прозы в казахской литературе заложил выдающийся писатель Кемель Токаев, написавший рассказ «Дашгин» в 1950-е годы.

В статье были исследованы характеристики полицейского сыщика в рассказах создателя детективной прозы в азербайджанской литературе «Бриллиантовое дело» Джамшида Амирова и «Застойное золото» видного представителя казахской литературы Кемеля Токаева, положившего начало детективной прозе страны. Изучались тематическая и идейная проблематика обоих художественных произведений, характерные черты и принципы полицейского сыска, сходство и различие аспектов в произведениях авторов и др. вопросы. Новизной исследования можно считать превращение «Бриллиантового дела» Джамшида Амирова и «Застойного золота» Кемеля Токаева в предмет анализа детективной прозы, изучение двух произведений методом сравнительного анализа.

**Ключевые слова:** детектив, полиция, повествование, особенности, сравнение